# Levon Aronyana qalib gələn Teymur Rəcəbov "Airthings Masters"in çempionu olub

Onlayn blits şahmat üzrə "Airthings Masters" turnirinin final görüşlərinə yekun vurulub.

Apasport.az saytının məlumatına görə, Azərbaycan qrossmeysteri Teymur Rəcəbov yarışın qalibi adını qazanıb.



34 yaşlı şahmatçı finalda Ermənistan təmsilçisi Levon Aronyana qalib gəlib. İlk görüşdə 2,5:1,5 hesabı ilə qələbə qazanan həmyerlimiz bu gün ikinci dueldə də rəqibinə gücünü göstərib. Rəcəbov 3 görüşdən (2:1) sonra çempion tituluna yiyələnib. 4-cü matçın heç bir əhəmiyyəti qalmadığından oynanılmayıb. Çünki Aronyan qalib gələcəyi halda belə qrossmeysterimiz iki günün nəticəsinə əsasən heç-heçə sayəsində də birinci olacaqdı.

Teymur bu qələbə sayəsində 60 min dollar mükafata da sahib olub.

Qeyd edək ki, 200 min dollar mükafat fondu olan turnirdə 12 şahmatçı mübarizəyə başlayıb. Dairəvi sistemlə keçirilən ilk mərhələdən sonra 8 iştirakçı nokaut sistemi ilə yarışı davam etdirib.

# Birlikdə güclüyük

**İftixar hissi**

2020-ci ilin payızı xalqımız iki cəbhədə mübarizə aparırdı. Bir tərəfdən pandemiya ilə mübarizə cəbhəsi yarandı, digər tərəfdən Ermənistan kimi bir terrorçu dövlət ikinci cəbhəni açdı. Politoloqlarımızın qeyd etdiyi kimi Azərbaycan ordusu və Azərbaycan xalqı baş verən hadisələrə qarşı iki cəbhədə mübarizə aparmalı oldu. Cənab Prezident İlham Əliyevin xalqa müraciəti, ordu və xalqı birliyə çağırması, dünya təcrübəsində indiyədək görünməyən bir zəfərə gətirib çıxardı. 30 il bundan əvvəl işğalçı erməni ordusu tərəfindən işğal altında olan torpaqlarımızın hamısı cəmi 44 gün ərzində geri qaytarıldı. Dekabr ayının 10-da Bakıda və bütün rayonlarda zəfər bayramı qeyd olundu. Elə bir zəfər bayramı ki, bu gündən sonra əsrlər keçsə belə bu zəfər bayramı unudulmayacaq, tarixə qızıl hərflərlə yazılacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin.

Qeyd etmək istərdim ki, yaşımın 80-ci ilini adlamışam. Əmək stajımın fasiləsiz 56 ilinin 50 ilindən çoxu ulu öndər Heydər Əliyevin və onun davamçısı İlham Əliyevin respublikamıza rəhbərliyi dövrünə təsadüf edib. Məhz Azərbaycan xalqının ən çətin dövrlərdə belə əldə etdiyi uğurlar, qazandığı nailiyyətlər bu dahi şəxsiyyətlərin real siyasi diplomatiyasının nəticəsidir. Artıq bu təcrübənin dünyanın bir sıra ölkələri tərəfindən qəbul edilməsini xüsusi olaraq qeyd etməyə bilmərik. Xalq bu təcrübənin Azərbaycana hələ çox böyük uğurlar gətirəcəyini söyləyir. Çünki bu ağır günlərdə dövlət rəhbərliyinin, ordunun və xalqın birliyi bunu bir daha təsdiq etdi. Hər bir kəs Vətən naminə, xalq naminə əlindən gələni əsirgəmədi.

**Minnətdarlıq**

Həkimlərimiz də hər iki cəbhədə əllərindən gələni əsirgəmədilər. Mən və mənim ailə üzvlərim də rayon həkimlərinin fədakarlığının şahidi olduq. Həmin günlərdə xəstələnərək Qəbələ Rayon Müalicə-Diaqnostika Mərkəzinə və təcili yardım şöbəsinə müraciət etmişdik. Burada bizi həkim Rübabə Qasımova, təcili yardım işçiləri qarşıladılar. Tezliklə müayinə başlandı. Bizdə pandemiya əlamətləri tapılmadı. Ancaq ciddi soyuqdəyməyə, qripə və sətəlcəmə məruz qalmışıq. Evdə müalicə olunmağımız məsləhət görüldü. Xəstəliyimiz sanki 20 gündən çox çəkdi. Bu günlər ərzində həkimlə vaxtaşırı əlaqə saxladıq, demək olar ki, hər gün telefon əlaqəsi də yaratdıq. Xəstəxanada olarkən məhz bütün xəstələrə belə qayğının şahidi olduq.

Biz bütün ailə üzvlərimizlə birlikdə Rübabə həkimin, təcili yardım işçilərinin, həmçinin orta tibb işçilərindən Nüşabə xanımın, Gülər xanımın, Dilarə xanımın və adını çəkə bilmədiyim işçilərin müalicəmizdə göstərdikləri diqqət və qayğını unutmayacağıq. Onların hamısına dərin təşəkkürümüzü bildirir və hər birinə həyatın ən xoş günlərinin qismət olmasını arzulayıram.

**Nadir ATAKİŞİYEV,**
**Soltannuxa kəndi.**

# Şəhid olan evimiz

***Döşəməsi külə dönüb, dam yanıb,***
***Ağ daşları qara hisə boyanıb.***
***Divarları tab gətirib, dayanıb.***
***Dayanıb ki yox olmasın izimiz.***
***Bax, beləcə şəhid olub evimiz!***
***Qucağında böyütmüşdü o bizi.***
***Hər bucağı bir xatirə dənizi.***
***Əlimizin hər daşında var izi.***
***Kaş ki belə görməyəydi gözümüz.***
***Yanıb, sönüb, şəhid olub evimiz.***
***Talehimiz qurban getdi bir heçə.***
***Bizdən ayrı ili keçib gör neçə...***
***Qışda donub, buz tutan o dar küçə.***
***Yıxılardıq, qanayardı dizimiz.***
***İndi heyif, şəhid olub evimiz***
***Bir saraydı, yoxdu tayı ölkədə,***
***Şah qurmuşdu, xan tikmişdi bəlkə də.***
***Qoz ağacı qoruyurdu kölgədə.***
***Yayda bumbuz, səriniydi yerimiz.***
***Baxın, indi şəhid olub evimiz.***

**Nəsimi BAXŞƏLİYEV,**
**Şuşa şəhəri.**

# Unutsaq unudularıq

Rayonumuzun şairi Emin Baratoğlunun şeirləri mətbuat səhifələrindən, dərc olunan kitablardan yəqin ki, oxucularımıza tanışdır. Ancaq növbəti kitabda onun yazdığı ümumilikdə hər bir material sırf müharibə veteranlarına həsr olunmuşdur. Kitabda ilk nəzərə çarpan onun xalq şairi S. Vurğunun misrası ilə başlamasıdır.

***Unutmaz tarixin böyük günləri-***
***Dünyaya mərd gəlib mərd gedənləri,***

Həmçinin ön sözdə rayonumuzun tarixi keçmişi, Bum qəsəbəsində yaşamış, adları hər kəsin yaddaşında tarixləşən şəxslər haqqında verilən məlumat da diqqəti cəlb edir. Bum qəsəbəsindən 1941-45-ci illərdə Böyük Vətən Müharibəsinə gedərək igidliklə döyüşən oğulların (132 nəfər) adları, onlar haqqında təkbətək ətraflı məlumat verilmişdir. "Unutsaq unudularıq" kitabında həmçinin Macarıstan, Əfqanıstan veteranları, Çernobıl əlilləri, Qarabağ şəhidləri haqqında da məlumatlar öz yerini tutmuşdur.

Bildiyimiz kimi, 1941-45-ci illərin veteranlarından həyatda yaşayanlar hazırda tək-tərdir. Buna görə də, veteranların xatirələrini toplamaq baxımından çətinliklərlə qarşılaşsa da, Emin Baratoğlu oxucuların diqqətini cəlb edəcək, oxunaqlı materiallarla zəngin bir kitab ərsəyə gətirmişdir.

***Eh, o vaxtdan neçə illər keçsə də,***
***Doğma kənddən sanki dünən getmisiz.***
***Körpə-körpə uşaqların dilində***
***Nağıl olub həmişəlik bitmisiz, -***

deyən şair Böyük Vətən Müharibəsinin bumlu igidlərindən bəhs edən "Unutsaq unudularıq" kitabında veteranların nağıllaşan ömrünü əks etdirmişdir.

**B. İSAYEVA.**




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2021-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# İTMİŞDİR

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Göyçay Bölgə Şöbəsi tərəfindən "RUSLAN-86" kəndli fermer təsərrüfatı Məhdud Məsuliyyətli Cəmiyyətinə verilmiş möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Şəki RQİ və TBŞ tərəfindən **Hacıyev Qəzənfər Mehman oğluna** məxsus VAZ 21074 minik avtomobilinin arxa **dövlət nişan nömrəsi** (90 MU 927) itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Çarxana bələdiyyəsinin 05.07.2011-ci il tarixli 08 saylı qərarı ilə kənd təsərrüfatı məhsulları istehsalı torpaq sahəsi ilə bağlı tərtib edilmiş Dövlət Torpaq Kadastrı kitabında 17 fevral 2012-ci il tarixdə 18 nömrə ilə uçota alınmış A (kod 369383) **torpaq sahəsinin planı və ölçüsü sənədi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Şamlı bələdiyyəsinin 14.11.2011-ci il tarixli 11 saylı qərarı ilə kənd təsərrüfatı məhsulları istehsalı torpaq sahəsi ilə bağlı tərtib edilmiş Dövlət Torpaq Kadastrı kitabında 17 fevral 2012-ci il tarixdə 18 nömrə ilə uçota alınmış A (kod 369384) **torpaq sahəsinin planı və ölçüsü sənədi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Şəfili bələdiyyəsinin 04.11.2011-ci il tarixli 11 saylı qərarı ilə kənd təsərrüfatı məhsulları istehsalı torpaq sahəsi ilə bağlı tərtib edilmiş Dövlət Torpaq Kadastrı kitabında 17 fevral 2012-ci il tarixdə 18 nömrə ilə uçota alınmış A (kod 369385) **torpaq sahəsinin planı və ölçüsü sənədi** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1200*